**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏSİROV SAMİR ŞAHMUR OĞLU**

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ HESABLAR SİSTEMİNDƏ REGİONAL ÜMUMİ DAXİLİ MƏHSULUN HESABLANMASI PROBLEMLƏRİ

**İxtisas: 5302.01 – "Ekonometriya"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisad Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru, professor **Sakit Məmədi oğlu Yaqubov**

**Rəsmi opponentlər:** Iqtisad elmləri doktoru, professor **Yadulla Həmdulla oğlu Həsənli**

İqtisad üzrə fəlsəfə doktoru, **Yusif Xasay oğlu Yusifov**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu** (İqtisadi modelləşdirmə və analitik təhlil şöbəsi)

Müdafiə "22" dekabr 2015-ci il tarixində saat $14^{00}$ -da Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.016 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "19" noyabr 2015-ci ildə göndərilmişdir.

**FD.02.016 Dissertasiya Şurasının elmi katibi riyaziyyat elmləri doktoru, professor** **Natiq Qarakişi oğlu Əhmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI.

**Mövzunun aktuallığı.** Müasir dövrdə Azərbaycan Respublikasında bazar münasibətlərinin dayanıqlı şəkildə formalaşdırılması və inkişafı, ölkədə həyata keçirən davamlı islahatlar regional səviyyədə düşünülmüş və əsaslandırılmış sosial-iqtisadi siyasətin həyata keçirilməsini tələb edir.

Regional səviyyədə layiqli həyat şəraitinin və optimal əmək fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş konsepsiyaların hazırlanması, regionların iqtisadi potensialının, onların sosial-iqtisadi inkişaf səviyyəsinin və s. qiymətləndirilməsində geniş tətbiq edilən makroiqtisadi təhlilin müxtəlif vasitələrindən istifadə edilməsini zəruri edir. Eyni zamanda belə makroiqtisadi təhlil vasitələrindən regionlararası uyğunsuzluğun aradan qaldırılmasına, ölkə iqtisadiyyatının dayanıqlı və diversifikasiyalı inkişafının təmin edilməsinə istiqamətlənən siyasətin həyata keçirilməsində geniş istifadə edilir. Bu istiqamətdə makroiqtisadi təhlilin konseptual əsasını Milli Hesablar Sistemi (MHS) təşkil edir.

Ölkənin statistika təcrübəsində MHS-nin tətbiqi dövlət idarəçiliyinin bütün səviyyələrində düzgün idarəetmə qərarlarının qəbulu və həyata keçirilməsi üçün kompleks, nizamlı və əhatəli informasiya bazasının formalaşdırılmasına imkan verir. Məlum olduğu kimi, regionun iqtisadi vəziyyətinin əsas makroiqtisadi göstəriciləri MHS göstəricilərinin əsasını təşkil edən Regional Ümumi Daxili Məhsul (RÜDM) və onun komponentlərindən ibarətdir. Təcrübədə bu göstəricilərdən qısa və orta müddətə regional inkişafın proqnozlaşdırılmasında, regional fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsində, büdcənin planlaşdırılmasında və s. məqsədlər üçün istifadə edilir.

Regional idarəetmə sisteminin informasiya təminatı problemlərini həll etmək üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi bazar iqtisadiyyatının və beynəlxalq standartların tələblərinə uyğun regional səviyyədə ümumiləşdirilmiş sosial-iqtisadi göstəricilərin hesablanmasının

metodoloji qaydalarının işlənib hazırlanması üçün müntəzəm işlər həyata keçirir. Qeyd etmək lazımdır ki, statistika təcrübəsində regional səviyyədə milli hesablar sisteminin tətbiq edilməsinə baxmayaraq, bu səviyyədə istehsal proseslərinin təhlili üzrə RÜDM-in metodoloji aspektləri və regionun istehsal sisteminin fəaliyyətinin təhlili vasitəsi kimi onun analitik imkanları kifayət qədər tədqiq edilməmişdir. Regional göstəricilər, xüsusilə dəyər ifadəsində olan makro göstəricilər haqqında ətraflı və analitik təhlillər aparmağa imkan verən məlumatların əldə edilməsində çatışmazlıqlar mövcuddur. Dəyər göstəricilərinin region səviyyəsində bölgüsünün tam verilməməsi və milli hesablar sistemi komponentlərinin hesablanmaması istifadəçilərin tələbatının lazımi səviyyədə ödənilməməsinə dəlalət edir. Qeyd edilənlər və bu vaxta qədər toplanmış təcrübə göstərir ki, MHS-nin regional göstəricilərinin hesablanması və təhlilinin informasiya və metodoloji sahəsində bir sıra problemlər mövcuddur. Bütün bunlar tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi MHS-in regional göstəricilərinin hesablanmasına dair metodiki yanaşmaları müəyyən etmək və həmin göstəricilər əsasında ölkə regionlarının inkişafının mühüm makroiqtisadi meyllərini statistik qiymətləndirməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri hesab edilmişdir:

- ölkə və regional səviyyədə makroiqtisadi təhlil məqsədilə MHS-in analitik imkanlarını araşdırmaq;
- ölkədə MHS-in tətbiqinin müasir vəziyyətini araşdırmaq və onun inkişaf perspektivlərini müəyyənləşdirmək;
- MHS-in regional göstəricilərinin hesablanması prinsiplərini, metodlarını və xüsusiyyətlərini, həmçinin istifadə olunan statistik vahidlərin rolunu araşdırmaq;
- regional inkişafın iqtisadi göstəriciləri sistemində RÜDM-in analitik imkanlarını aşkar etmək;

- regional sviyyədə makroiqtisadi göstəriciləri hesablayarkən müşahidə olunmayan iqtisadiyyatın statistik uçotu problemini araşdırmaq;
- regionların iqtisadi inkişafının mühüm makroiqtisadi meyllərinin qiymətləndirilməsində istifadə edilən RÜDM-in hesablanmasının və onun hesablarının metodoloji əsaslarını araşdırmaq;
- RÜDM-in hesablanmasının informasiya bazasına olan tələbləri dəqiqləşdirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;
- məlumatlar arasında olan əlaqə və asılılıqlar əsasında modelləşdirmə və proqnozlaşdırma imkanlarını təhlil etmək.

**Tədqiqatın obyektini** MHS-nin regional göstəriciləri və müvafiq hesabları təşkil edir.

**Tədqiqatın predmeti** kimi RÜDM-un hesablanmasının nəzəri-metodoloji, informasiya və praktika tərəfləri çıxış edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məcmuələri, bülletenləri, internet səhifəsində mövzuya uyğun informasiya resursları, beynəlxalq təşkilatların məlumatları, həmçinin tədqiq edilən problem üzrə nəşr olunan materiallar təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** statistikanın təkmilləşdirilməsi ilə bağlı Azərbaycanda qəbul edilmiş normativ-hüquqi aktlar, beynəlxalq təşkilatların tövsiyə xarakterli metodoloji sənədləri, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin MHS-in və onun regional göstəricilərinin hesablanması ilə bağlı metodoloji qaydaları, həmçinin tədqiq edilən problemə dair Azərbaycanın və xarici ölkə alimlərinin əsərləri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

1. regional ümumi daxili məhsulun makroiqtisadi təhlil və proqnozlaşdırmada əsas vasitə olduğu əsaslandırılmışdır;

2. regional ümumi daxili məhsulun analitik imkanları təhlil olunmuş və mühüm əlamətləri müəyyənləşdirilmişdir;
3. ölkədə MHS-in tətbiqinin müasir vəziyyəti öyrənilmiş və onun perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir;
4. regional səviyyədə makroiqtisadi göstəriciləri hesablayarkən müşahidə olunmayan iqtisadiyyatın statistik uçotunun metodoloji problemləri aşkar edilmişdir;
5. regional səviyyədə sosial-iqtisadi siyasətin prioritet istiqamətləri əsaslandırılarkən MHS-nin regional göstəricilərindən istifadə edilməsinin zəruriliyi əsaslandırılmışdır;
6. RÜDM-un hesablanmasının informasiya bazasına olan tələblər dəqiqləşdirilmiş və onun təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
7. regionun iqtisadi inkişafının mühüm ümumiləşdirici göstəricisi olan RÜDM-un və onun komponentlərinin hesablanması və təhlili sahəsində çatışmazlıqlar aşkar edilmiş və onların aradan qaldırılması zəruriliyi əsaslandırılmışdır;
8. beynəlxalq metodologiyalar və təcrübələr əsasında regional inkişaf göstəriciləri təhlil olunmuş və onların hesablanması istiqamətləri müəyyən edilmişdir;
9. ev təsərrüfatlarının gəlir və xərcləri üzrə ekonometrik təhlillər aparılmış və nəticələr qiymətləndirilmişdir;
10. əsaslandırılmış regional siyasətin həyata keçirilməsi üçün RÜDM üzrə informasiya bazasının strukturu formalaşdırılmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqat prosesində əldə olunmuş nəticələrdən, irəli sürülmüş təklif və tövsiyələrdən rəsmi statistikada milli hesablar sisteminin regional göstəricilərinin hesablanmasında və təhlilində, regionların sosial-iqtisadi

inkişafının mühüm meyllərinin qiymətləndirilməsində, regionların sosial-iqtisadi inkişaf proqramlarının, qısa və orta müddətli proqnozların, habelə dərslik və dərs vəsaitlərinin hazırlanmasında istifadə edilə bilər.

Tədqiqatın mövzusu ilə bağlı 9 elmi məqalə və tezis nəşr olunmuşdur.

**İşin quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Onun ümumi həcmi 181 səhifədir. İşdə 15 cədvəl, 2 şəkil və 5 əlavə verilmişdir. İstifadə olunmuş ədəbiyyat siyahısında 96 ədəbiyyat adı var.

Birinci fəsildə Azərbaycan Respublikasının rəsmi statistikasında MHS-nin təşkili və onun əsas xüsusiyyətləri verilmiş, o cümlədən MHS iqtisadiyyatın makrostatistik modeli kimi təhlil olunmuş, MHS-nin Azərbaycanda müasir vəziyyəti və Azərbaycan iqtisadiyyatının inkişafının təhlili üçün bu məlumatlardan istifadə istiqamətləri göstərilmişdir.

İkinci fəsil Azərbaycan Respublikasında MHS-in regional göstəricilərinin hesablanması və təhlilinin metodoloji problemləri adlanır. Burada regional ümumi daxili məhsulun hesablanmasının əsas prinsip və metodları, RÜDM-un hesablanmasında istifadə olunan statistik vahidlərin rolu və əhəmiyyəti, istehsal hesabının əsas komponentləri və onların RÜDM-ə təsiri, RÜDM göstəricisinin formalaşmasında müşahidə olunmayan iqtisadiyyatın qiymətləndirilməsi problemləri əhatə olunmuşdur.

MHS-in regional göstəriciləri əsasında ölkənin regionlarının inkişafının makroiqtisadi meyllərinin təhlili imkanları və onun təkmilləşdirilməsi istiqamətləri üçüncü fəsildə verilmişdir. Regionların iqtisadi inkişafının qiymətləndirilməsi və büdcələrarası münasibətlərin təhlili üçün RÜDM göstəricisindən istifadənin mümkünlüyü və xüsusiyyətləri, RÜDM-un hesablanmasının təkmilləşdirilməsi istiqamətləri və informasiya bazasına olan tələblər müəyyənləşdirilmişdir.

# TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya işinin aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti göstərilir, işin elmi yeniliyi, təcrübi əhəmiyyəti və nəticələrin sınaqdan keçirilməsi və istifadəsi şərh edilir.

Dissertasiya işinin "**Azərbaycan Respublikasında Milli Hesablar Sisteminin (MHS) tətbiqinin müasir vəziyyəti və inkişaf perspektivləri"** adlanan birinci fəslində Azərbaycan Respublikasının rəsmi statistikasında MHS-nin təşkili və onun əsas xüsusiyyətləri verilmiş, o cümlədən MHS-də makroiqtisadi göstəricilər sistemi sosial-iqtisadi proseslərin təhlilinin əsası kimi təhlil olunmuş, MHS-nin Azərbaycanda müasir vəziyyəti və Azərbaycan iqtisadiyyatının inkişafının təhlili üçün bu məlumatlardan istifadə istiqamətləri göstərilmiş, MHS və istehsal hesabının əsas komponentləri və RÜDM-ə onların təsiri öyrənilmişdir.

Regional hesablar sisteminin ən mühüm makroiqtisadi göstəricisi RÜDM-dir. Bu göstəricinin hesablanmasına yanaşmada həm MDB, həm də dünya ölkələrində bəzi təcrübələr vardır. Belə ki, RÜDM-in (sınaq) hesablanması Azərbaycanda 2000-2003-cü, Gürcüstanda 1998-2003-cü, Qazaxstanda 1990-2003-cü, Rusiya 1994-2002-ci, Qırğızıstanda 1995-2002-ci illər üzrə aparılmışdır. Azərbaycanda RÜDM-u ilkin qiymətləndirməsi hesabat ilindən sonrakı ilin yanvar ayında, dəqiqləşmələr isə avqust-sentyabr aylarında aparılır.

Araşdırmalar göstərir ki, digər ölkələr kimi, Azərbaycanda da regional səviyyədə MHS-nin əsas göstəricilərinin hesablanması sisteminin işlənib hazırlanması həyata keçirilir. Bu zaman milli hesabların vahid metodologiyasından, ümumi prinsip və standartlarından istifadə edilir. Lakin, MHS modelinin makroiqtisadi xüsusiyyətlərinə görə o, regional səviyyədə tamamilə tətbiq oluna bilməz. Bununla əlaqədar olaraq MHS çərçivəsində regional iqtisadiyyatın vəziyyətini, inkişaf dinamikasını səciyyələndirən makroiqtisadi göstəricilərin işlənib hazırlanması və tətbiqi həyata keçirilməlidir.

Təhlillər göstərir ki, regional hesablar sisteminin makroiqtisadi göstəriciləri bütövlükdə iqtisadiyyat səviyyəsində təşkil edilən göstəriciləri təkrar etmir.

Dissertasiya işinin "**Azərbaycan Respublikasında MHS-in regional göstəricilərinin hesablanması və təhlilinin metodoloji problemləri"** adlanan 2-ci fəsli Azərbaycanda MHS göstəricilərinin regional səviyyədə tətbiq edilməsi və regional ümumi daxili məhsul göstəricisinin tətbiq edilməsi problemlərinə həsr edilmişdir. Bu fəsildə regional ümumi daxili məhsulun hesablanmasının əsas prinsip və metodları, RÜDM-un hesablanmasında istifadə olunan statistik vahidlərin rolu və əhəmiyyəti, RÜDM göstəricisinin formalaşmasında müşahidə olunmayan iqtisadiyyatın qiymətləndirilməsi problemləri əhatə olunmuşdur.

Dünyanın ayrı-ayrı ölkələrinin təcrübəsində və beynəlxalq qurumların tövsiyə xarakterli sənədlərində regional səviyyədə milli hesabların informasiya bazasının tərtib edilməsi və müvafiq regional makroiqtisadi göstəricilərin hesablanmasının ümumi konsepsiyası mövcuddur. Milli hesabların regional səviyyədə tərtib olunmasında əsas məqsəd regional siyasətin nəticələrini və perspektiv inkişaf istiqamətlərini qiymətləndirməyə imkan verən makroiqtisadi göstəricilər bazasını formalaşdırmaqdan ibarətdir. Həmin göstəricilər regionların iqtisadi inkişaf səviyyəsini və dinamikasını kompleks səciyyələndirməyə, ölkə iqtisadiyyatında regionların yeri və rolunu, aparılan regional siyasətin səmərəliliyini qiymətləndirməyə, həm ölkə daxili, həm də ölkələrarası ayrı-ayrı regionların inkişaf səviyyəsini müqayisə etməyə imkan yaratmalıdır.

Nəzəri cəhətdən regionların müəyyən qədər müstəqil iqtisadi sistemlərə malik olmasını qəbul etsək və onlar arasında olan münasibətlərə ölkələrarası münasibətlər kimi baxsaq, regional hesablar sisteminin qurulmasının son dərəcə çətin olduğunu görərik. MHS-nin bəzi hesablarının regional səviyyədə tətbiqi sahəsində praktiki xarakterli çətinliklərinin bir sıra səbəbləri vardır. Regionlar arasında mal və xidmətlər axını daha intensiv xarakterdə olur. Bunun səbəbi ayrıca bir regionda mal və xidmətlərin istehsalı, gəlirlərin yaranması ilə onların istifadəsi

arasında bağlılığın az olmasıdır. Ehtiyatlar və istifadə haqqında məlumatların uyğunlaşdırılması üçün bir qayda olaraq regional səviyyədə olmayan (milli səviyyədən fərqli olaraq) regionlararası mal, xidmət, gəlir və aktivlərin axınları haqqında məlumata malik olmaq lazımdır. Hazırda regional hesablar sisteminin formalaşdırılması və RÜDM-nin hesablanması sahəsində görüləcək işlərə aşağıdakıları aid etmək olar:

1) Cari qiymətlərdə RÜDM-in hesablanması; regional istehsal hesabının qurulması;

2) İstehsal hesabı göstəricilərinin sabit (müqayisəli) qiymətlərdə qiymətləndirilməsi, RÜDM-in fiziki həcm indeksinin hesablanması;

3) İstehsal iştirakçıları arasında bölüşdürülən ilkin gəlirlərin hesablanması (əməyin ödənilməsi, istehsal üzrə digər subsidiyalar çıxılmaqla istehsala digər vergilər, mənfəət və qarışıq gəlir), yəni, gəlirlərin yaranmasının regional hesablarının tərtib edilməsi;

Bütün bu göstəricilər ölkə səviyyəsində hesablandığı kimi regional səviyyədə də hesablana bilər. Məsələn, ölkə səviyyəsində 2003-2013-cü illər üzrə ÜDM-in gəlir və xərclər metodu ilə hesablanması aşağıdakı qrafiklərdə təqdim olunmuşdur.

**ÜDM -Gəlirin yaranması (mln. manat)**






**ÜDM-in istifadəsi (mln manat)**




İstənilən səviyyəli region, hətta ayrı-ayrı yaşayış məntəqələri üçün hesabların tərtib olunmasını nəzəri cəhətdən əsaslandırmaq olar. Lakin, regionun səviyyəsi nə qədər aşağı olarsa, yuxarıda göstərilən problemlərlə əlaqədar olaraq hesabların tərtib olunmasının səmərəliliyi azalır. Buna görə də təcrübədə ilkin mərhələdə adətən hesablar əsasən daha yüksək səviyyəli regionlar üçün qurulur. Daha sonra məhdud göstəricilər çərçivəsində onların daha aşağı səviyyəli regionlara tətbiqi təmin edilməlidir.

Regionun inkişaf səviyyəsini və istehsalın səmərəliliyini təhlil etmək üçün mühüm ümumiləşdirici göstərici kimi məşğul əhalinin hər nəfərinə düşən RÜDM göstəricisindən istifadə etmək olar. Mühüm makroiqtisadi göstərici kimi ondan statistika təcrübəsində həyata keçirilən regional siyasətin səmərəliliyini qiymətləndirərkən, ölkə iqtisadiyyatında regionların yeri və rolunu, həmçinin regionlararası inkişaf səviyyəsini təhlil edərkən geniş istifadə edilir. Ona görə də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarında bu göstəriciyə önəm verilməlidir.

**2007-2010-cu illər üzrə Azərbaycan Respublikasının iqtisadi regionları üzrə hər nəfərə düşən regional məhsul buraxılışının həcmi, min manat**

| İqtisadi rayonlar | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|
| Respublika üzrə cəmi: | 22.6 | 31.1 | 27.4 | 32.4 |
| o cümlədən: | | | | |
| Bakı şəhəri | 13.3 | 17.6 | 14.9 | 17.7 |
| Rayonlar üzrə: | 9.3 | 13.5 | 12.5 | 14.8 |
| Abşeron iqtisadi rayonu | 1.3 | 2.0 | 1.3 | 1.3 |
| Gəncə-Qazax iqtisadi rayonu | 1.0 | 1.4 | 1.3 | 1.5 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 0.9 | 1.3 | 1.2 | 1.4 |
| Lənkəran iqtisadi rayonu | 0.7 | 0.9 | 0.9 | 1.0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 1.3 | 2.3 | 1.7 | 2.2 |
| Aran iqtisadi rayonu | 1.2 | 1.5 | 1.5 | 1.6 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 0.4 | 0.5 | 0.4 | 0.4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 0.9 | 1.2 | 1.4 | 1.5 |
| Naxçıvan iqtisadi rayonu | 1.6 | 2.3 | 2.9 | 3.6 |

Regionların rezidentləri olan vahidlərin əməliyyatlarını xarakterizə edən regional göstəricilərin hesablanması aşağıdakı metodlara əsaslanır:

a) “aşağıdan yuxarı” metodu;
b) “yuxarıdan aşağı” metodu;
c) qarışıq metod.

Qeyd edilənlərdən görünür ki, regional hesablar sisteminin qurulması hər bir regionun institusional vahidlərinin iqtisadi fəaliyyəti haqqında sistemləşdirilmiş və müqayisəli informasiya əldə etməyə imkan verir. Həmin informasiya bazası əsasında regional iqtisadi siyasətin hazırlanması və həyata keçirilməsi ilə bağlı məsələlər həll edilir, həmçinin regional və mərkəzi səviyyəli dövlət idarəetmə orqanları regionların iqtisadi və sosial inkişafının kompleks makroiqtisadi təhlilini həyata keçirir.

Regional səviyyədə makroiqtisadi təhlillər aparmaq üçün həmin sistem analitik imkanlara malikdir. İqtisadiyyat səviyyəsində tətbiq edilən MHS-də olduğu kimi regional hesablar sistemində də eyni yanaşmalardan istifadə edilir. Regional istehsal hesabının qurulması RÜDM–in və onun komponentlərinin sabit və cari qiymətlərlə hesablanması metodikasının araşdırılması regional səviyyədə makroiqtisadi təhlilin aparılmasında istifadə oluna bilən göstəricilərin müəyyənləşdirilməsinə imkan verir.

Milli hesablar sisteminin düzgün formalaşdırlması, sahələrarası balansların tərtib edilməsi və ən əsası ümumi regional məhsulun hesablanması uçot vahidlərinin düzgün müəyyənləşdirilməsindən asılıdır.

Araşdırma göstərir ki, regional hesablar sisteminin əsas makroiqtisadi göstəricisi olan RUDM-un hesablanması metodikası xeyli mürəkkəbdir. Lakin buna baxmayaraq, MHS-nin ümumi metodoloji prinsipləri və qaydaları bu göstəricinin komponentlərinin düzgün müəyyənləşdirilməsinə imkan verir. Ölkədə MHS-nin tam tətbiqi gələcəkdə regional inkişafın müxtəlif tərəflərini səciyyələndirən müvafiq hesabların qurulmasına və onların göstəricilərinin statistik təhlilinə əlverişli şərait yaradacaqdır.

Dissertasiya işinin "**MHS-nin regional göstəriciləri əsasında ölkənin regionlarının inkişafının makroiqtisadi meyllərinin təhlili imkanları və onun təkmilləşdirilməsi istiqamətləri**" adlanan 3-cü fəslində Azərbaycanda iqtisadi təhlil

üçün RÜDM göstəricisindən istifadə edilməsi və bu göstəricilərin təkmilləşdirilməsi perspektivləri verilmişdir. Bu fəsildə regionların iqtisadi inkişafının qiymətləndirilməsi və büdcələrarası münasibətlərin təhlili üçün RÜDM göstəricisindən istifadənin mümkünlüyü və xüsusiyyətləri, RÜDM-un hesablanmasının təkmilləşdirilməsi istiqamətləri və informasiya bazasına olan tələblər müəyyənləşdirilmişdir.

Qeyd edilir ki, MHS–nin həm ölkə, həm də region səviyyəsində əsas makro göstəricisi ÜDM-dur. Bu göstəricidən tədqiq edilən ərazinin iqtisadi potensialının və onun inkişaf səviyyəsinin qiymətləndirilməsində və həmçinin düzgün idarəetmə qərarlarının qəbul edilməsində daha geniş istifadə olunur. Statistikanın metodları əsasında bu göstəricinin mütləq və nisbi ifadədə təhlili regionlararası müqayisələrin aparılmasına imkan verir. Bu zaman makro səviyyədə səmərəlilik göstəricilərinin hər nəfərə düşən ÜDM-in təhlilinə, onların digər iqtisadi və sosial göstəricilərlə əlaqə və asılılıqların öyrənilməsinə, ÜDM-ə və əhalinin həyat səviyyəsinə təsir edən amillərin qiymətləndirilməsinə xüsusi önəm verilir. Bu baxımdan MHS-nin regional göstəricilərinin xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi və həmin göstəricilərdən regional siyasətin əsas istiqamətlərinin əsaslandırılmasında və onun nəticələrinin qiymətləndirilməsində mühüm əhəmiyyəti vardır. Beynəlxalq təcrübədə ÜDM ölkənin iqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsi və digər ölkələrlə müqayisə edilməsi, istehlakın müxtəlif parametrlərinin müəyyənləşdirilməsi, həmçinin ayrı-ayrı makroiqtisadi təhlillərin həyata keçirilməsi baxımından digər iqtisadi göstəricilərdən üstün hesab olunur. Lakin, ÜDM və onun əsasında hesablanan göstəricilər ümumiləşdirici (orta) göstəricilər olduğundan əhalinin ayrı-ayrı qruplarını, onların bölgüsünü xaraketizə etməyə imkan vermir. Bu göstəricilərdə əhalinin təhsil və həyat səviyyəsi, alıcılıq qabiliyyəti, ətraf mühit və s. kimi tərəflər əks olunmur. Statistik təhlil və qiymətləndirmə təcrübəsində ÜDM kimi hələlik geniş

istifadə olunan yeni bir makroiqtisadi göstəricinin olmaması, onun uzun illər boyu əsas olaraq qalacağını deməyə imkan verir.

Qeyd etmək lazımdır ki, "vergi potensialı" anlayışının şərhi potensialın özünün qiymətləndirilməsi metodundan asılıdır. Bununla yanaşı, inzibati ərazi vahidinin vergi potensialı anlayışını formalaşdırarkən nəzərə almaq lazımdır ki, vergi potensialını əks etdirən göstəricilərdən inzibati ərazi vahidlərinin idarəedici orqanlarının öz ərazisi daxilində göstərdikləri dövlət xidmətlərinin həcmini müəyyən etmək məqsədilə istifadə olunur. Buna görə də hər bir region üzrə vergi potensialının qiymətləndirilməsi bütün inzibati ərazi vahidləri üzrə (vergi ödəyiciləri üçün vahid vergi sisteminin tətbiqi zamanı) regionda dövlət xidmətlərinin göstərilməsi (vergi dərəcələri, vergi güzəştlərinin formaları) imkanlarını əks etdirməlidir.

Belə qiymətləndirmələr ehtimallar əsasında həyata keçirilir. Belə ki, bütün sahələr üçün əlavə dəyər vergisi yükünün sabit fərziyyəsi irəli sürülür. Bununla yanaşı, belə qiymətəndirmələrdə miqyas əhəmiyyətli olduğu üçün bu regionlar üzrə qeyri-bərabər şəraitin yaranmasına səbəb olur. Başqa sözlə, iqtisadi baxımdan böyük regionun bu qiymətləndirmədə çəkisi də böyük olur. Bu metodun müsbət cəhəti ondan ibarətdir ki, proqnoz üzrə xətanın mütləq qiyməti sıfıra bərabər olacaqdır, yəni regionlar üzrə qiymətləndirmənin səviyyəsi regionlar üzrə faktiki yığımların həcminə bərabər olacaqdır. Bu büdcə planlaşdırması üçün əlverişli olsa da, vergi potensialının qiymətləndirilməsinin keyfiyyəti (standart xəta) regionlar üzrə eyni olmayacaqdır. İqtisadi baxımdan böyük regionlar üzrə qiymətləndirmə kiçik regionlara nisbətən daha dəqiq olacaq. Büdcələrarası bərabərləşdirmə məqsədilə vergi potensialının qiymətləndirərkən bu kifayət qədər əhəmiyyətli çatışmazlıq olduğundan həmin metodun tətbiqi məqsədəuyğun hesab edilmir.

Regionun vergi potensialının qiymətləndirilməsi prosesində yaranan çatışmazlıqlar reqressiya-korrelyasiya

metodundan istifadə etməklə qiymətləndirilib aradan qaldırıla bilər. Müvafiq çəkilərlə ən kiçik kvadratlar metodunu tətbiq etməklə miqyas səmərəsini tam aradan qaldırmaq mümkündür. Bununla yanaşı, vergi öhdəliklərinin ümumi regional məhsuldan asılılığının korrelyasiya təhlili hər nəfərə düşən ümumi regional məhsulun artması qarşılığında vergi riskinin də artdığını göstərir. Məlumdur ki, iqtisadi cəhətdən daha çox inkişaf etmiş region ümumi əlavə dəyərin hər manatında daha çox vergi ödəyir. Regionun vergi potensialının hər nəfərə düşən ümumi regional məhsuldan aslılığının reqressiya modeli aşağıdakı kimi olmuşdur:

$$TA^{*}_{i}=(-688.448+0.245 \cdot Y_i) \cdot N_i$$

Burada $TA^{*}_{i}$ – i regionunun vergi potensialının (vergi gəlirləri və RF-nin büdcə sitemi üzrə öhdəliklərin artımı).

$Y_i$ – i hər nəfərə düşən ümumi regional məhsulun həcmini göstərir.

Araşdırma göstərir ki, regionların iqtisadi inkişafını qiymətləndirmək və büdcələrarası münasibətləri təhlil etmək üçün regional hesablar sistemindən və onun ümumiləşdirici göstəricisi olan RÜDM-dən istifadə edilməsi zəruridir. Belə ki, həmin göstəricilər əsasında regionun digər sosial-iqtisadi göstəriciləri ilə müxtəlif əlaqə və trend modellərinin qurulmasına nail olmaq olar ki, bu da əsaslandırılmış regional siyasətin işlənib hazırlanmasına və bütövlükdə ölkədə statistika xidmətinin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər.

Milli Hesablar Sisteminin əsas göstəricilərinin iqtisadiyyatın sektorları (ev təsərrüfatı, qeyri-maliyyə sektoru və s.) üzrə hesablanması üçün istifadə edilən metodlardan müasiri ekonometrik modellərdir. Ev təsərrüfatı sektorunda gəlirlərin və son istehlak xərclərinin modelləşdirilməsi üçün ev təsərrüfatının son istehlak xərcləri və ev təsərrüfatında yaşayanların sayı göstəricilərinin ekonometrik təhlilini aparaq. Təqdiqat üçün 2012-ci ilin bir rübünün ev təsərrüfatlarının büdcə müayinəsinin məlumatları götürülmüşdür.

Ekonometrik təhlil aparmaq üçün ölkənin bir iqtisadi rayonu - Naxçıvan MR üzrə ev təsərrüfatlarının son istehlak xərcləri və ev təsərrüfatlarında yaşayanların sayından istifadə edilmişdir.

Nəticələr göstərmişdir ki, Naxçıvan MR üzrə ev təsərrüfatlarının gəlirləri ilə ev təsərrüfatı üzvlərinin sayı arasında korrelyasiya əlaqəsi 0,840, ev təsərrüfatlarının xərcləri ilə ev təsərrüfatı üzvlərinin sayı arasında korrelyasiya əlaqəsi 0,849 olmuşdur. Naxçıvan MR üzrə orta kəmiyyətin nisbi xətası ev təsərrüfatlarının gəlirləri üzrə 3.65 %, son istehlak xərcləri üzrə 3.62%, üzvlərinin sayı üzrə 2.08% olmuşdur.

**Cədvəl 1. Korrelyasiya (Correlations)**

| | | Xərclər | Gəlirlər | Sayi |
|---|---|---|---|---|
| Xərclər | Pearson Correlation | 1 | ,985** | ,849** |
| | N | 306 | 306 | 306 |
| Gəlirlər | Pearson Correlation | ,985** | 1 | ,840** |
| | N | 306 | 306 | 306 |
| Sayi | Pearson Correlation | ,849** | ,840** | 1 |
| | N | 306 | 306 | 306 |

Variasiya əmsalı isə ev təsərrüfatlarının gəlirləri üzrə 63.8%, son istehlak xərcləri üzrə 63.34%, ev təsərrüfatı üzvlərinin sayına görə 34.99% olmuşdur.

Asimmetriya əmsalının onun standart xətasına nisbəti ev təsərrüfatlarının gəlirləri üzrə 8.1, son istehlak xərcləri üzrə 8.1, ev təsərrüfatı üzvlərinin sayı üzrə 1.41 olmuşdur.

Ekses əmsalının qiymətinin onun standart xətasına nisbəti ev təsərrüfatlarının gəlirləri üzrə 8.1, son istehlak xərcləri üzrə 7.54, ev təsərrüfatı üzvlərinin sayı üzrə 0.76 olmuşdur.

**Cədvəl 2. Təsviri statistika (Descriptive Statistics)**

| | Statistik nəticələr (Statistic) | | | Standart xəta (Std. Error) | | |
|---|---|---|---|---|---|---|
| | Xərclər | Gəlirlər | Sayı | Xərclər | Gəlirlər | Sayı |
| N | 306 | 306 | 306 | | | |
| Rang | 11501 | 11768 | 7 | | | |
| Minimum | 147 | 132 | 1 | | | |
| Maksimum | 11648 | 11900 | 8 | | | |
| Yekun | 965221 | 933379 | 1219 | | | |
| Orta qiymət | 3154,32 | 3050,26 | 3,98 | 114,230 | 111,260 | ,080 |
| Standart kənarlaşma | 1,998E3 | 1,946E3 | 1,394 | | | |
| Dispersiya | 3,993E6 | 3,788E6 | 1,944 | | | |
| Asimmetriya | 1,132 | 1,141 | -,197 | ,139 | ,139 | ,139 |
| Ekses | 2,096 | 2,252 | -,211 | ,278 | ,278 | ,278 |

Naxçıvan MR üzrə ev təsərrüfatlarının son isteklak xərclərinin ekonometrik modelini tərtib etmək üçün SPSS proqram paketindən istifadə edilmişdir.

Tədqiqat üçün 2012-ci ildə Naxçıvan MR rayonları üzrə aparılmış ev təsərrüfatlarının tədqiqatının rüblük məlumatlardan istifadə edilmişdir. Verilmiş məlumatların loqarifmik qiymətləri əsasında əmsallar tapılmış və aşağıdakı model tərtib edilmişdir:

$y = 5.677+0.533*x$,

Burada, y – ev təsərrüfatlarının son istehlak xərcləri;

x – ev təsərrüfatı üzvlərinin sayıdır.

Modelin keyfiyyətini xarakterizə edən parametrlər aşağıdakılardır:

Korrelyasiya əmsalı $R=0.844$

Determinasiya əmsalı $R^2 = 0.721$

Darbin-Uotson əmsalı DW = 1.587

Fişer meyarı F=787.1-dir, Fişer meyarının $\alpha$=0,05 (P=1-0,05) etibarlılıq intervalında cədvəl qiyməti $F_{1,304,0.05}$=3.84-dür. Göründüyü kimi, $F>F_{1,304,0.05}$ - dir, yəni, nəticə və faktor əlamətləri arasındakı əlaqə əhəmiyyətlidir.

Styudent meyarının (t) qiyməti sərbəst hədd üçün -9.26, birinci hədd üçün-28.05 (x)-dir. Styudent meyarının (t) cədvəl qiyməti $t_{0.05,304}$=0.67 olduğundan sərbəst hədd və birinci həddin əmsalları modelə daxil edilir. Yəni, $t > t_{0.05,304}$.

Büdcələrarası bərabərləşdirmə sistemi elə qurulmalıdır ki, regionlar üzrə maliyyələşmə səviyyəsi mərkəzi hökümət tərəfindən qoyulan normadan aşağı olduğu halda region öz potensialına uyğun maliyyə yardımı ala bilsin.

Milli hesablar sisteminin regional göstəricilərinin formalaşdırılmasının əsas məqsədi regional siyasətin prioretet istiqamətlərini əsaslandırmaq və onun nəticələrini qiymətləndirməkdən ibarətdir. Regional hesablar sisteminin qurulmasının və onun mühüm makro göstəricilərinin düzgün hesablanmasının əsas şərti dünya təcrübəsində qəbul olunmuş vahid konsepsiyaya əsaslanmasıdır. Ayrı-ayrı ölkələrdə milli və regional hesablar sisteminin tətbiqi təcrübələrini ümumiləşdirərək RÜDM-in təkmilləşdirilıməsinin bir neçə istiqamətini müəyyənləşdirmək olar.

RÜDM-in təkmilləşdirilməsinin əsas məsələlərindən biri onun informasiya bazasının formalaşdırılmasıdır. Həmin informasiya bazası regionların iqtisadi inkişaf dinamikasını və səviyyəsini kompleks şəkildə səciyyələndirməyə, onların ölkə iqtisadiyyatında yerini və əhəmiyyətini obyektiv qiymətləndirməyə, həyata keçirilən regional siyasətin səmərələliyini təhlil etməyə, həm ölkə daxili, həm də beynəlxalq səviyyədə ayrı-ayrı regionların inkişaf səviyyəsini müqayisə etməyə imkan verəməlidir. Müvafiq məlumatlar bazasının genişləndirilməsi yolu ilə regionların makroiqtisadi

göstəricilərinin hesablanması regional statistika sisteminin inkişafına da təkan verir. Qeyd edilənlərlə yanaşı, həmin informasiya bazasının məlumatları elmi tədqiqat xarakterli işlərdə və regionların iqtisadi inkişafının modelləşdirilməsində də istifadə edilə bilər. Regional hesablar sistemini formalaşdırarkən nəzərə almaq lazımdır ki, o bütövlükdə iqtisadiyyat səviyyəsində qurulan MHS-in konseptual əsaslarına uyğun həyata keçirilməli və milli hesablarda əks olunan iqtisadi əməliyyatların regionlar üzrə bölüşdürülməsini dəqiq xarakterizə etməlidir.

Beynəlxalq təcrübədə MHS-nin regional göstəricilərinin cari və müqayisəli qiymətlərlə hesablanması sahəsindəki problemlərin ümumiləşdirilməsi ölkədə regional hesablar sisteminin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirməyə imkan verir.

Dünyanın ayrı-ayrı ölkələrinin təcrübəsində və beynəlxalq qurumların tövsiyə xarakterli sənədlərində regional səviyyədə milli hesabların informasiya bazasının tərtib edilməsi və müvafiq regional makroiqtisadi göstəricilərin hesablanmasının ümumi konsepsiyası mövcuddur. Milli hesabların regional səviyyədə tərtib olunmasında əsas məqsəd, regional siyasətin nəticələrini və perspektiv inkişaf istiqamətlərini qiymətləndirməyə imkan verən makroiqtisadi göstəricilər bazasını formalaşdırmaqdan ibarətdir. Başqa sözlə desək, həmin göstəricilər regionların iqtisadi inkişafı səviyyəsini və dinamikasını kompleks səciyyələndirməyə, ölkə iqtisadiyyatında regionların yeri və rolunu, aparılan regional siyasətin səmərəliliyini qiymətləndirməyə, həm ölkədaxili, həm də ölkələrarası ayrı-ayrı regionların inkişaf səviyyəsini müqayisə etməyə imkan verir.

Regionların ümumi iqtisadi təhlilinin aparılması, tendensiyaların və iqtisadi qanunauyğunluqların aşkara çıxarılması üçün statistik, ekonometrik metodlardan istifadə olunması zəruridir. Belə elmi-metodoloji üsullarla ekoloji, iqtisadi və sosial inkişafın səviyyəsi müəyyənləşdirilir, proqnozlaşdırma aparılır.

Klassik üsullardan fərqli olaraq, ekonometrik metodlarda məlumatlar yekun göstəricilərə, orta qiymətlərə deyil, mikro obyektlər (tədqiqat vahidləri) haqqında məlumatlara əsaslanır. Həmin məlumatlar yoxlanılır, normal olmayan məlumatlar (maksimum, minimum və s.) təhlil olunur, məlumatların statistik xarakteristikaları və informasiya yükü müəyyənləşir, başqa göstəricilərlə əlaqəliliyinin statistik təhlili aparılır, qruplaşdırılır və s. Nəticədə, məlumatın etibarlılığı artır, qeyri-müəyyənlik azalır, daha aydın təsvir halına salınır. Belə məlumatlara əsaslanan qərarların informasiya riski azalır.

Araşdırma göstərir ki, (yekun) göstəricilərə görə aparılmış təhlillər konkret nəticə vermir. Tədqiqat obyektləri bir neçə faktora (xarakterizə edən göstəriciyə) görə qruplaşdırılmır, reprezentativ obyektlərdə tədqiqat aparılmır.

Milli hesablar sisteminin regional göstəricilərini hesablayarkən ilk növbədə aşağıdakı məsələlərin həlli vacibdir:

1) regional səviyyədə MHS-in hesablanacaq göstəricilərin və tərtib olunacaq hesabların müəyyənləşdirilməsi;

2) regional hesabların tərtib edilməsi zamanı inzibati ərazi bölgülərinin səviyyələrinin müəyyənləşdirilməsi;

3) iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə regional məlumatlarını formalaşdırarkən düzgün və səmərəli üsulların seçilməsi.

Bu məsələləri həll edərkən nəzəri cəhətdən mümkün olan hesablamalarla, mövcud olan real maliyyə, əmək və maddi ehtiyatlar nəzərə alınmaqla praktiki baxımdan həyata keçirilə bilən hesablamalar uzlaşdırılmalıdır.

Regionu nisbətən müstəqil iqtisadi sistem kimi qəbul etməklə, onun digər regionlarla münasibətlərini nəzəri cəhətdən ölkələr arasında olan münasibətlərlə bərabər tutmaq olar. Lakin, buna baxmayaraq ölkə səviyyəsində qurulan hesablar sisteminə tam uyğun gələn regional hesablar sisteminin qurulması praktiki olaraq mümkün deyil. Bu da, MHS-in bəzi təriflərinin regional

səviyyədə tətbiqini çətinləşdirən amillərin mövcudluğundan irəli gəlir. Mal və xidmət ehtiyatlarının onların istifadəsi ilə uyğunlaşdırımaq üçün mal, xidmət, gəlir və aktivlərin regionlararası axını haqqında məlumatlar olmalıdır. Məlumdur ki, milli səviyyədən fərqli olaraq, regional səviyyədə bu məlumatlar mövcud deyildir.

Ümumiyyətlə, MHS-in regional səviyyədə tətbiqinin əsas praktiki məqsədlərinə aşağıdakıları aid etmək olar:

- iqtisadiyyatın sahələri üzrə cari qiymətlərdə regional ümumi daxili məhsul göstəricisinin və istehsal hesabının qurulması;
- iqtisadiyyatın sahələri üzrə istehsal hesabı göstəricilərinin sabit (müqayisəli) qiymətlərlə qiymətləndirilməsi və RÜDM -in fiziki həcm indeksinin hesablanması.

Perspektivdə informasiya bazası və regional göstəricilərin hesablanması metodologiyası təkmilləşdikcə regional inkişafın səviyyəsini səciyyələndirən MHS göstəricilərinin siyahısı da genişləndirilməlidir.

Araşdırma göstərir ki, Azərbaycanda olduğu kimi MDB ölkələrində də əsas problemlərdən biri  məhz informasiya bazalarının formalaşdırılmasıdır. Baxmayaraq ki, hər bir ölkə regional hesabların qurulmasının cari vəziyyətini nəzərə almaqla onun qiymətləndirilməsinin prioritet istiqamətlərini özü müəyyənləşdirir. Bu sahədə mühüm məsələlər informasiya bazasının təkmilləşdirilməsi və daha səmərəli hesabat metodlarının tətbiq edilməsidir. Bu zaman RÜDM-in ilkin qiymətləndirilməsinin əvvəlcə ərazi statistika orqanları tərəfindən, daha sonra isə ümumi səviyyədə həyata keçirilməsi daha səmərəlidir.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:

1. S. Nəsirov. "Azərbaycan Respublikasının Milli Hesablar Sistemində regional ümumi daxili məhsulun hesablanması problemləri" //"İqtisadiyyat və Audit jurnalı" Bakı 2008 №9(99). s. 41-45.

2. S. Nəsirov. "Вопросы исчисления и основные направления совершенствования расчетов ВРП в регионах Азербайджана" //Научно информационный журнал "Вопросы статистики". Москва 5/2013. s. 61-65.

3. S. Nəsirov. "Assessment of non-observed economy in the regional gross domestic product (RGDP) in the republic of Azerbaijan and main problems" //"Business-Engineering" jurnalı.Georgian Technical Univercity, Tbilisi, 2012 №3.s. 56-60.

4. S. Nəsirov. "Müstəqillik illərində Azərbaycan Respublikasının makroiqtisadi vəziyyətinə statistik baxış və iqtisadi strukturunun təhlili" //AMEA, İqtisadiyyat institutu "Elmi Əsərlər"jurnalı. Bakı, №1, 2013. s.113-117.

5. S. Nəsirov. "Проблемы отражения результатов ненаблюдаемой деятельности при расчете валового регионального продукта" //Научно информационный журнал "Вопросы статистики". Москва 9/2014. s.71-76.

6. S. Nəsirov. "Ölkə regionlarının statistik məlumatlarının ekonometrik təhlili" //AMEA, İqtisadiyyat institutu "Elmi Əsərlər"jurnalı. Bakı, №3, 2014. s. 266-274.

7. S. Nəsirov. "İqtisadi təhlil üçün RÜDM göstəricisindən istifadə edilməsi və bu göstəricinin təkmilləşdirilməsi perspektivləri" /ADİU, Bakı 2013. Elmi praktiki konfrans. s. 136-138.

8. S. Nəsirov. "Regional Ümumi Daxili Məhsul və onun təhlilinin əsas xüsusiyyətləri" /Daxili Audit: Reallıqlar və perspektivlər elmi praktiki konfrans. s. 83-87.

9. S. Nəsirov. "Regionların iqtisadi inkişafının statistik qiymətləndirilməsində regional ümumi daxili məhsul (RÜDM) göstəricisinin rolu" /Bakı 2012,ADİU. elmi praktiki konfrans. s. 153-155.

**Насиров Самир Шахмур оглы**

## Проблемы исчисления валового регионального продукта в системе национальных счетов Азербайджанской Республики

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 3 глав, заключения, списка литературы и приложения. Во введении обосновывается актуальность темы, определяется уровень изученности проблемы, цели и задачи, объект и предмет исследования, научная новизна и научно-практическая значимость работы, апробация исследования.

В первой главе, были исследованы основные параметры и организация СНС в официальной статистической системе Азербайджанской Республики, сфера использования данных СНС для анализа развития современного состояния и экономического развития СНС в Азербайджане .

Во второй главе были исследованы проблемы применения показателей ВРП, внедрение на региональной основе показателей СНС в Азербайджане, основные принципы и методы расчета ВРП, роль и значение статистических единиц используемых в расчете ВРП экономическая оценка проблем не встречающиеся в формировании показателей ВРП.

В третьей главе было исследовано использование показателей ВРП для экономического анализа в Азербайджане и перспективы усовершенствования этих данных. Особенности и возможность использование показателей ВРП для анализа оценки экономического развития регионов, усовершенствование в направлении расчета ВРП, а также были сделаны рекомендации по выполнению требований для информационной базы.

В заключении обобщены важнейшие методологические и практические результаты исследования и рекомендации.

**Nasirov Samir Shahmur**

## The problems of calculation of Gross Regional Product in National System of Accounts in Azerbaijan Republic.

### SUMMARY

This thesis has been devoted to the theoretical model of the National Accounts System and its implementation perspectives of regime in Azerbaijan Republic. The thesis consists of introduction, 3 chapters, conclusion and proposals, the list of literature and appendix.

At first chapter, it is informed about National Accounts System and its main features in official statistics system of Azerbaijan Republic. Furthermore, the current state of National Accounts System in Azerbaijan and using of data of NAS has been investigated in order to analysis of development of economy.

At second chapter, applying of indicators of National Accounts System in regional level in Azerbaijan, applying problems of RGDP indicators, the main principles and methods of calculation of RGDP, main role and importance of statistics indicators in calculation of RGDP have been investigated.

At third chapter, using of indicators of RGDP for economical analysis in Azerbaijan, improvements of these indicators and estimate of economical development of regions have been researched. Moreover, improvement of calculation of RGDP have been recommended.

In the conclusion generalized the most important methodical and practical results of the research and proposals.

Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,4
Tiraj 100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**НАСИРОВ САМИР ШАХМУР ОГЛЫ**

# ПРОБЛЕМЫ ИСЧИСЛЕНИЯ ВАЛОВОГО РЕГИОНАЛЬНОГО ПРОДУКТА В СИСТЕМЕ НАЦИОНАЛЬНЫХ СЧЕТОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5302.01 – ЭКОНОМЕТРИЯ**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по экономике**

**БАКУ – 2015**